*UOT 159.9*

***Ülviyyə Azad qızı Nəhmətova,***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Bakı Qızlar Universitetinin baş müəllimi*
https://orcid.org/0000-0001-5335-5372

# QƏRB VƏ ŞƏRQ MƏDƏNİYYƏTLƏRİNDƏ YENİYETMƏLƏRDƏ GENDER ROLLARININ FORMALAŞMASININ MÜQAYİSƏLİ TƏHLİLİ

***Ульвия Азад гызы Нахметова,***
*докторант по программе доктора философии,*
*старший преподаватель Бакинского Университета для Девушек*

# СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ ФОРМИРОВАНИЯ ГЕНДЕРНЫХ РОЛЕЙ У ПОДРОСТКОВ В ЗАПАДНОЙ И ВОСТОЧНОЙ КУЛЬТУРАХ

***Ulviyya Azad Nahmatova,***
*doctorial student in the program of doctor of philosophy*
*senior lecturer at Baku Girls' University*

# COMPARATIVE ANALYSIS OF THE FORMATION OF GENDER ROLES IN ADOLESCENTS IN WESTERN AND EASTERN CULTURES

**Xülasə.** Mədəniyyət anlayışı ilə gender arasında birbaşa əlaqə var. Bəşəriyyət tarixi boyu hər bir cəmiyyətin gender rolları ilə bağlı bir sıra dəyərləri, normaları və mənaları mövcud olub. Bütün cəmiyyətlərdə hər bir fərdin gender rollarından gözlənilən rol davranışları var.

Şərq mədəniyyətində yeniyetmə oğlana qızla müqayisədə daha çox sərbəstlik verilirsə, Qərb mədəniyyətində hər iki cinsə sərbəstlik verilir. Bəlkə də hər iki cinsə eyni cür münasibət göstərmək düzgün deyildir. Çünki yeniyetmələr doğuşdan cinslərinə görə fərqlənirlərsə, onlara cinslərinə uyğun bəslənilən münasibət də fərqli olmalıdır.

***Açar sözlər:*** *yeniyetmə, gender rolları, şərq mədəniyyəti, qərb mədəniyyəti, rəhbərlik üslubları*

**Резюме.** Существует прямая связь между концептом культуры и гендером. На протяжении всей истории человечества в каждом обществе существовал набор ценностей, норм и значений, связанных с гендерными ролями. Во всех обществах есть ролевое поведение, которое ожидается от гендерных ролей каждого человека.

В то время как в восточной культуре мальчикам-подросткам предоставляется больше свободы, чем девочкам, в западной культуре свобода предоставляется обоим полам. Возможно, неправильно относиться к обоим полам одинаково. Потому что, если подростки с рождения отличаются по полу, то и обращение с ними в зависимости от пола должно быть разным.

***Ключевые слова:*** *подросток, гендерные роли, восточная культура, западная культура, стили лидерства*

**Summary.** There is a direct relationship between the concept of culture and gender. Throughout human history, every society has had a set of values, norms, and meanings related to gender roles. All societies have role behaviors that are expected of each individual's gender roles.

While in Eastern culture adolescent boys are given more freedom than girls, in Western culture both sexes are given freedom. Perhaps it is not right to treat both genders equally. Because if adolescents are different from birth according to their gender, then the treatment given to them according to their gender should also be different.

***Key words:*** *adolescent, gender roles, eastern culture, western culture, leadership styles*

Mədəniyyət kollektiv bir fenomendir. Hər bir zaman kəsiyi, hər bir cəmiyyət özünəuyğun mədəniyyət formalaşdırır. Ümumiyyətlə, mədəniyyət anlayışı özündə iki mühüm elementi ehtiva edir:

1. Mədəniyyət öz strukturuna görə fərqlilikləri önə çəkən xüsusiyyətə malikdir. Çünki mədəniyyət cəmiyyətin formalaşdırdığı dəyərlərin, normaların və mənaların bütövlüyünü ifadə edir.

2. Mədəniyyət sosial həyatda formalaşdığına görə dinamikdir. Mədəniyyət cəmiyyətdə bərqərar olan vərdişlərindən və ya adətlərdən bəhrələnir. [16, s. 234].

Mədəniyyət anlayışı ilə gender arasında birbaşa əlaqə var. Bəşəriyyət tarixi boyu hər bir cəmiyyətin gender rolları ilə bağlı bir sıra dəyərləri, normaları və mənaları mövcud olub. Bütün cəmiyyətlərdə hər bir fərdin gender rollarından gözlənilən rol davranışları var. Hər bir cəmiyyət öz vərdişlərini və ya ənənələrini qoruyub saxlamağın tərəfdarıdır. Gender rolları bu vərdişlər və ya ənənələr nəticəsində öyrənmə və öyrətmə şəklində qazanılır. Yəni, mədəniyyət gender rollarının müəyyən edilməsində və mənimsənilməsində həlledici rola malikdir. Cəmiyyətin dəyərlərinin, norma və mənalarının bütövlüyünü ifadə edən mədəniyyət vərdişlər və ya ənənələr şəklində öyrənilir, öyrədilir və cəmiyyətin digər təbəqələrinə ötürülür. Məsələn, atanın oğluna kişi modelini, ananın qızına qadın modelini ifadə etməsini misal göstərmək olar.

C.H. Midə görə [15, s. 229], digər canlılarla müqayisədə insanlar arasında ünsiyyət keyfiyyətcə fərqli formada inkişaf etmişdir. Bu ünsiyyət mənalı simvolları ehtiva edir. Mənalı simvollardan istifadə etmək qabiliyyəti insanları digər canlılardan fərqləndirir. Fərd yetkinləşdikcə, şüur mənalı simvollardan istifadə etmək qabiliyyətinin tədricən inkişafı prosesində meydana çıxır. Bu zaman sosial mühitdə və ünsiyyəti təmin edən bu mənalı simvollara misal olaraq gender rolları nümunə göstərilə bilər. Gender rolları qadınlar və kişilər üçün mənalı simvolları ehtiva edir. Bu simvollar sosial qrupun bütün üzvləri üçün oxşar mənalara malikdir. Müvafiq olaraq üzvlər oxşar vəziyyətlərdə oxşar davranışlar nümayiş etdirirlər. Gender rolları cəmiyyət üzvlərinin sosial mühitdəki hərəkətlərində müəyyənedicidir.

A. Banduraya görə [14, s. 238], sosial öyrənmə sosial gücləndirmə və model davranışları təqdim etməklə baş verir. Gender rolları insanların prosesdə daxilən möhkəmləndirdiyi davranışlarda özünü göstərir. Başqa sözlə, gender rolları insanların düşünmədən etdikləri davranışlara çevrilir. Ən sadə misal gətirsək, ananın analığı və atanın atalığı bunun tipik nümunələrindən biridir. Ancaq ananın ana və atanın atalıq davranışı kollektiv davranışın məhsuludur. Bu kollektiv davranışları başa düşmək üçün insanların davranışları şərtləndirən mədəni mühiti nəzərə almaq lazımdır.

Gender rolları da uşaqlıqdan sosiallaşma ilə inkişaf edir. Yetkinlik dövründə uşaqlıqdan formalaşan bu davranışlara uyğun davranışlar nümayiş olunur.

Bildiyimiz kimi, yeniyetməlik dövrü 10-11 yaşdan 14-15 yaşa qədər olan dövrü əhatə edir. Bu dövr anatomik – fizioloji, psixi və sosial keyfiyyətlər baxımından həyatın bir mərhələsindən digərinə, yəni uşaqlıqdan yaşlılığa keçid dövrü kimi səciyyələnir. Yeniyetməlik yaşı inkişafın xüsusi və mürəkkəb dövrüdür. Psixoloji – pedaqoji ədəbiyyatda uşağın inkişafının bu dövrü "çətin dövr", "böhranlı dövr", "keçid dövrü", "ziddiyyətli dövr" və s. kimi xarakterizə olunur. Görkəmli psixoloq L.S. Vıqotskinin fikrincə, yeniyetməlik "cinsi yetişmə yaşı"dır. Lakin bu yaş eyni zamanda "şəxsiyyətin yetişməsi yaşı"dır". [6, s.186]. Yeniyetmənin bir şəxsiyyət kimi yetişməsində onlarda formalaşan gender rollarının da böyük əhəmiyyəti vardır. Belə ki, yeniyetmə yaşında gender rolunun məzmunu və icrası barədə təsəvvürlər dəqiqləşir və möhkəmlənir. Bir çox tədqiqatçılar [7, s. 195], məhz bu yaş dövründə uşaqlarla daha çox ünsiyyət və münasibətdə olmağın vacibliyini vurğulayırlar. Qədim Yunan filosofu Sokratın fikrincə, nazik və tər budaqları düzəltmək asan, təravəti keçmiş, qabığı qurumuş, üzü bərkimiş ağacı düzəltmək isə mümkün olmadığı kimi yeniyetmələrlə həmsöhbət olmaq daha faydalıdır.

Ümumiyyətlə, gender rolları dedikdə, qadın və kişi üçün gözlənilən davranış və düşüncə tərzi nəzərdə tutulur. ABŞ psixoloqu D. Mayersin qeyd etdiyi kimi [3, səh.128], "hər yerdə" qadınlar ev işlərinin çox hissəsini yerinə yetirirlər, "hər yerdə" yeməyin hazırlanması və ya qabların yuyulması kimi ev vəzifələri, bir qayda

olaraq, onların missiyası sayılır. Bu kimi davranış gözləmələrindən kişi və qadın üçün "gender rolları" formalaşır. Gender rolları daha çox mədəniyyətdən və epoxadan asılıdır [3, səh.129].

Ənənəvi olaraq formalaşmış mədəniyyətdə maskulinlik və feminlik barədə ən çox yayılmış təsəvvürlər ondan ibarətdir ki, kişi keyfiyyəti və dəyərlərinə dominantlığı, təcavüzkarlığı, qətiyyətliliyi, rasionallığı, fəallığı, gücü, hökmlülüyü, müvəffəqiyyətə can atmağı və s., qadın keyfiyyəti və dəyərlərinə isə incəliyi, yumşaqlığı, utancaqlığı və s. aid edirlər. Və bununla bağlı olaraq dəyərlər norması formalaşmışdır ki, ona müvafiq olaraq maskulinlik və feminlik birbirilə kəsişmir, müxtəlifdir və asimmetrikdir.

***Şəkil 1. S. Bemin Gender rolları təsnifatı***




Məhz onların bu cür nisbəti də cəmiyyətdə mövcud olan gender sisteminin əsasını təşkil edir.

Antropoloq, etnoqraf və tarixçilər "tipik kişi" yaxud "tipik qadın" barədə təsəvvürlərin nisbiliyini müəyyən etmişlər. Bir cəmiyyət kişi üçün xarakterik işi (davranışı, xarakterinin xüsusiyyəti) müəyyən dərəcədə digər cəmiyyət qadın üçün xarakterik hesab edə bilər. Ümumiyyətlə, maskulin və femin davranışa aid olan mədəni gözləmə və stereotiplər gender rolu adlanır. S. Bem təsnifatına uyğun olaraq [10, s.91] gender rollarını dörd tipə ayırmaq olar: maskulin, femin, androgen, qeyri-müəyyən:

*Maskulin – kişiyə xas psixoloji xüsusiyyətlərin qadına xas psixoloji xüsusiyyətlər ilə müqayisədə nəzərə çarpacaq şəkildə üstünlük təşkil etməsi;

*Femin – qadına xas psixoloji xüsusiyyətlərin kişiyə xas psixoloji xüsusiyyətlər ilə müqayisədə nəzərə çarpacaq şəkildə üstünlük təşkil etməsi;

*Androgen – həm kişi, həm də qadına xas psixoloji xüsusiyyətlərin eyni zamanda parlaq şəkildə təzahür etməsi;

*Qeyri-müəyyən – həm kişi, həm də qadına xas psixoloji xüsusiyyətlərin zəif şəkildə təzahür etməsi. Bunu daha aydın Şəkil 1-də görmək olar.

1955-ci ildə Amerika psixoloqu Talkott Parsons dövr üçün populyar olan nuklear ailə modelində gender rollarını araşdırdı. Gender rollarının ciddi bir ənənəvi görünüşünü (sənaye əsrli Amerika baxımından) daha liberal bir görünüşlə müqayisə edən Parsons modelini təklif etdi. Model **A** kişi və qadın rollarının ümumi rol bölgüsünü, **B** modeli isə gender rollarının ümumi inteqrasiyasını təsvir edir. Cədvəldə verilən nümunələr ABŞ-ın mədəniyyət və infrastruktur kontekstinə əsaslanır (Cədvəl 1.).

***Cədvəl 1.***
***Gender rolları ilə bağlı T. Parsons modeli***

| | **Model A – Ümumi rol bölgüsü** | **Model B – Rolların ümumi inteqrasiyası** |
|---|---|---|
| **Təhsil** | *Gender xarakterli təhsil; yüksək peşəkarlıq yalnız kişilər üçün vacibdir* | *Birgə tərbiyə məktəbləri, qızlar və oğlanlar üçün eyni siniflər, kişilər və qadınlar üçün eyni ixtisas.* |
| **İxtisas** | *İş yeri qadınların əsas sahəsi deyil; karyera və peşə irəliləməsi qadınlar üçün əhəmiyyətsiz sayılır* | *Qadınlar üçün karyera kişilər üçün olduğu kimi vacibdir; kişi və qadın üçün bərabər peşə imkanları zəruridir.* |
| **Ev işi** | *Ev işləri və uşağa baxmaq qadının əsas vəzifələridir; kişinin bu funksiyalarda iştirakı yalnız qismən istənilir.* | *Bütün ev işləri evliliyin hər iki tərəfi üçün bərabər paylarda edilir.* |
| **Qərar qəbuletmə** | *Münaqişə vəziyyətində məsələn, yaşayış yeri seçmək, uşaqlar üçün məktəb seçimi, qərarlar almaq və s. məsələlərdə kişi son sözü deyir.* | *Heç bir tərəfdaş üstün deyildir; həllər həmişə uyğun bir qərar tapmaq prinsipinə əməl etmir; Fikir ayrılığı olarsa, status-kvo qorunur.* |
| **Uşağa qayğı və təhsil** | *Qadın bu funksiyaların ən böyük hissəsinə diqqət göstərir; uşaqları tərbiyə edir və onlara hər şəkildə qayğı göstərir.* | *Kişi və qadın bu funksiyaları bərabər bölüşürlər.* |

Qadın olmaq hələ heç də avtomatik olaraq femin xüsusiyyətlərə malik olmaq demək deyildir, necə ki kişi cinsinə mənsubluq maskulinliklə üst-üstə düşməyə də bilər.

Yeniyetmələr formalaşdıqları mühitin, mədəniyyətin təsiri ilə müxtəlif iradi keyfiyyətləri gender rollarına yükləyirlər. Belə ki, ingilis ailələrində yeniyetmə oğlanlara dözümlülük, hər cür məhdudiyyətlərə dözmək, fiziki əzablara tab gətirmək, yeniyetmə qızlara isə ünsiyyətdə sadə, geniş biliyə, düşüncəyə malik, lakin cəmiyyət daxilində utancaq olmaq öyrədilir [4, s. 136].

ABŞ-da yeniyetmə qızların tərbiyəsi digər ölkələrdən tamamilə fərqlidir. Kifayət qədər sərbəst böyüyən qızlara həyatda hər şeyə sakit baxmaq, mətin olmaq öyrədilir. Onlar həyatdakı təhlükəni, cəmiyyətdə baş verənləri görür, onları ağılla təhlil edir, hadisələri təlaş keçirmədən qarşılayır, Avropa qızlarında olduğu kimi yeniyetməlikdən gəncliyə keçidi sadəlövhcəsinə, qorxu ilə yox, təbii qəbul edirlər. Amerikalı qız, yaşından asılı olmayaraq, utancaqlığını və ya nəyisə bilmədiyini nadir hallarda büruzə verir.

Uşaqlığından müstəqilliyə alışan amerikalı yeniyetmə qız, demək olar ki, öz üzərində nəzarəti itirmir. Yol verilən bütün zövqlərdən həzz alır, lakin başını itirmir, ağlın cilovunu əldən buraxmır [4, s. 143]. Ümumiyyətlə, amerikalı yeniyetmələr valideynləri ilə münasibətdə çox sərbəstdirlər. Onların "öz pulları" olur. Əgər valideyn uşağına az pul verirsə, o özü bir neçə saat işləməklə pul qazanır və istədiyi kimi xərcləyir [4, s. 144].

Fransa ailələrində yetişən yeniyetmələr isə amerikalı yeniyetmələr kimi pul qazanmaq üçün qəzet paylamağı, maşın yumağı səmərəli vasitə hesab etmirlər. Fransız yeniyetmələr daha münasib ev işlərində – stol açmaq, qab yumaq, zibil atmaq, ev yığışdırmaq kimi işlərdə valideynlərinə kömək etməyi qəbul edirlər [4, s. 149].

Alman ailələrində yetişən yeniyetmələrə isə soyuq mühakimə yürütmək, məqsədyönlü, ardıcıl fəaliyyət göstərmək, çətinlikləri dəf etmək kimi keyfiyyətlər aşılanır. Onlarda sintetik ağıl, dözümlülük və xeyirxah münasibət özünü göstərir. Almanlar övladlarına qarşı çox sərt və soyuqqanlıdırlar. Onlarda səliqə-sahmana ciddi riayət olunmasına böyük əhəmiyyət verirlər [4, s.155].

Yapon ailəsində yetişən yeniyetmələr isə ata və anasının iradəsinə tabedirlər, onların məsləhətlərinə qulaq asırlar. Həya hissi yüksək yapon yeniyetməsi səbirlə böyüklərin onu qiymət-

ləndirəcəyi zamanı gözləyir. Yapon ailəsində tələskənlik, nəyəsə cəhd etmək yaxşı qəbul edilmir [4, s. 160]. Yapon yeniyetmələri sinifdə kimin birinci, kiminsə də hamıdan zəif olması fikirlərini heç ağıllarına gətirmirlər. Müəllimlər heç vaxt bir şagirdi digəri ilə müqayisə etmirlər [4, s. 161].

Misirli ailəsindəki yeniyetmə ailəyə çox bağlı olur. Misirlilər oğulun iqtisadi, eləcə də digər müstəqilliyini qəbul etmirlər. Hesab edirlər ki, oğulun borcu ataya tabe olmaqdır. Misirlilər övladlarına qarşı ciddi və ya qəddar deyillər. Övlad atanın iradəsindən çıxmadıqda, özlərinə qarşı hörmət və qayğı görürlər [4, s. 166].

E.H. Erikson qeyd edir ki [9, s. 175], yeniyetməlik dövrü şəxsiyyətin inkişafında ən əsas dönüş məqamıdır. Bu yaş həddinin bütün fiziki, sosial və əqli dəyişiklikləri "mən kiməm?" şəklində təzahür edən axtarışlarla nəticələnir. Belə bir qeyri-müəyyənlik və şübhə daha sonralar müvafiq şəxsin müəyyən gender roluna uyğunlaşmasına, yaxud "gender güclənməsinə" səbəb ola bilər. Erkən yeniyetməlik dövründə oğlan uşaqları "sərt model rolunu" təqlid edə bilər və kifayət qədər homofobik ola bilər. Qız uşaqları isə dəqiq geyim əlamətlərinə riayət edir.

Cinsi yetkinlik dövrü də yeniyetmələrdə gender rollarının formalaşmasında mühüm təsirə malikdir. Belə ki, qız uşaqları erkən yetkinlik keçirdikdə daha sosial problemlərlə üzləşirlər, oğlanlar üçün bu hal tam əksinədir. Bir çox yeniyetmələr üçün qeyri-müəyyənlik, ziddiyyətli tələblər, yaşlı şəxslərdən və icmanın dəstəyindən imtina edilməsi əsaslı problemləri yaradan cəhətlərdir.

Qızların yeniyetməlik dövrünü bir qədər çətin keçirməsi haqqında müəyyən araşdırmalar aparılmışdır [9, s. 80]. Çünki yeniyetmə oğlanlarla müqayisədə yeniyetmə qızlar depressiyanı, yeməklə bağlı narahatlıqları və özünəinamın az olması hallarını daha çox keçirirlər. Ancaq bu yeniyetmə qızın etnik mənşəyinə uyğun olaraq da dəyişə bilər. Məsələn, Afrika – Amerika yeniyetmələri özləri haqqında belə neqativ ifadələrin işlədilməsinə yol vermirlər. Uilyam Pollakın fikrincə [9, s. 83], gender rollarının ictimailəşməsi yeniyetmə oğlanlar üçün çətinlik yaradır. Çünki Qərb mədəniyyəti oğlan uşaqlarına özlərini ifadə baxımından cüzi imkanlar verir. Qızlarla müqayisədə oğlanlarda emosional hərarət, intihar halları və zorakılıq hallarına daha çox rast gəlinir.

Qərb psixoloqu Perrinin fikrincə [9, s. 96], təcavüzlü davranışa görə oğlanlar öz valideynlərindən qızlarla müqayisədə daha az məzəmmət gözləyir. Adətən valideynlər öz uşaqlarını gender üçün tipik olan məşğuliyyətə görə həvəsləndirirlər.

Şərqdə islam dininin qəbulundan sonra qızlara olan münasibət də dəyişdi. Məsələn, azərbaycanlı ailəsində qız ənənə və etik normaların daşıyıcısı kimi yaxşı davranış tərzinə malik olmalı, hər şeylə razılaşmalı, mehriban olmalıdır. Oğlanda isə müstəqillik və məqsədə doğru irəliləmək, güclü iradə, iddiaçılıq rəğbətlə qarşılanır; təcavüzkarlığa və emosiyalarını boğmamağa icazə verilir. Adətən ənənəvi azərbaycanlı ailəsində ana qızı oğlandan daha çox nəzarətdə saxlayır [4, s.162]. Azərbaycanın dahi şairi Nizami Gəncəvi "Oğlum Məhəmmədə nəsihət" [6, s. 45] şeirində oğlunda qeyrət, hünər, ədəb, kamal, vicdan və s. kimi maskulin keyfiyyətləri görmək istədiyini bildirir.

XVIII əsr qadın hərəkatının, feminizmin də ilkin "rüşeymləri"nin formalaşma dövrü hesab olunur. Belə ki, cəmiyyətdə qadın hüquqları və onların müdafiəsi Məhsəti, Natəvan, Meri Uolstonkraft (qadın İngilis yazıçısı) kimi mütəfəkkirlərin ictimai-mədəni fəaliyyətində daim aktuallığını saxlayıb. Bu paralellikdə bir maraqlı cəhət diqqəti çəkir. Bir-birindən xəbərsiz olan, hətta ayrı-ayrı dövrlərdə yaşayan, müxtəlif millətlərin, dinlərin, mədəniyyətlərin nümayəndəsi olmuş bu qadınların mövzu, fikir və baxışlarının uyğunluğu, bir-birilə səsləşir. Müəyyən mənada bu dəyişməyən qadın taleyinin real əksidir [10, s.79-105].

XX əsrdə C. Məmmədquluzadənin "Ölülər" dramında Kefli İsgəndərin yeniyetmə bacısı Nazlını da öz ixtiyarı olmadan Şeyx Nəsrullaha ərə verirlər. "Ölülər" dramında hüquqsuz Nazlı, "Kefli" İsgəndər də özlərini bərabərlik və azadlıq axtarışının tipik nümunələri kimi göstərirdilər. "Bu işlərin çarəsi balaca qızlarımızı oxutmaqdır" deyən C. Məmmədquluzadə o zamankı Azərbaycanda hökm sürən feodal-patriarxal münasibətləri, çar hakimləri və s." din xadimlərinin özbaşınalığını, şüurlarda və məişətdəki geriliyi, mövhumat və xurafatı tənqid edir, qadınların acı-

nacaqlı taleyinə acıyır, tənqid edir, qadın azadlığı məsələlərini inadla təbliğ və təqdir edirdi.

M.Ə. Rəsulzadə və onun həmfikirləri Şərqdə ilk dəfə olaraq qadınlara seçki hüququ verməklə [9, s. 105], H.Z. Tağıyev ilk dünyəvi müsəlman qadın məktəbi açmaqla qadınların cəmiyyətin ictimai-siyasi həyatındakı rolunun əhəmiyyətini vurğulamışlar.

Şərq və Qərb mədəniyyətinin yeniyetmələrdə formalaşdırdığı gender rollarını müqayisə edərkən görünür ki, Şərq mədəniyyətində tərbiyə zamanı əsasən avtoritar rəhbərlik üslubuna üstünlük verilsə də, Qərb mədəniyyətində daha çox liberal rəhbərlik üslubuna üstünlük verilir. Tərbiyədə rəhbərlik üslublarının sərhədini aşağıdakı kimi ifadə etmək olar (Şəkil 2.).

**Şəkil 2.**
**Tərbiyədə rəhbərlik üslublarının sərhədi**




Aparılan araşdırmalara görə [3, s. 65] ən yaxşı tərbiyə üslubu demokratik üslubdur. Bu tərbiyə üslubunun təsiri nəticəsində yeniyetmələrdə özlərinə inam hissi, öz fikirlərini sərbəst şəkildə ifadə etmək, başqalarının fikrinə hörmətlə yanaşmaq, cəsarətlilik, müstəqillik və s. kimi müsbət keyfiyyətlər formalaşır.

Şərq mədəniyyətində yeniyetmə oğlana qızla müqayisədə daha çox sərbəstlik verilirsə, Qərb mədəniyyətində hər iki cinsə sərbəstlik verilir. Bəlkə də hər iki cinsə eyni cür münasibət göstərmək düzgün deyildir. Çünki yeniyetmələr doğuşdan cinslərinə görə fərqlənirlərsə, onlara cinslərinə uyğun bəslənilən münasibət də fərqli olmalıdır. Eyni cür münasibət gələcəkdə qurulacaq ailələrdə də problemlər yaşadır. Belə ki, hər zaman fərqliliklər bir-birlərini cəlb ediblər, nəinki eyniliklər.

Gender rolları müəyyən bir mədəniyyətdə qadın və kişilərlə əlaqəli davranışlara, inanclara və dəyərlərə, mədəni gözləntilərə və sosial olaraq müəyyən edilmiş xüsusiyyətlərə istinad edir. Gender rolları o cəmiyyətdəki insanların cinsinə görə gözləntilərini ifadə edən vərdişləri, rəftarları, davranışları və dəyərləri daşıyır [13, s. 215]. Bu baxımdan gender rolları cəmiyyətin gözləntilərinə uyğun formalaşır. Cəmiyyətin gözləntiləri cəmiyyətin tarixi prosesdə mənimsədiyi dəyərlərə əsaslanır. Cins dəyərlərdən qidalanan mədəniyyətin təmin edilməsində və mədəniyyətin ötürülməsində həlledici rola malikdir. Mədəniyyət gender rolunun müəyyən edilməsində mühüm amil olduğu halda, gender rolu da mədəniyyətin davamlılığını təmin edən əsas amillərdən biridir.

**Problemin aktuallığı.** Şərq və Qərb mədəniyyətlərində yeniyetmə oğlan və qızlarda gender rollarının formalaşmasının müqayisəli təhlili.

**Problemin elmi yeniliyi**. Məqalədə Şərq və Qərb mədəniyyətində yeniyetmə oğlan və qızlarda gender rollarının formalaşmasının müqayisəli təhlili və bu prosesə psixoloji mühitin təsiri ətraflı şəkildə şərh olunmuşdur.

**Problemin praktik əhəmiyyəti**. Məqalədə irəli sürülən təklif və nəticələr yeniyetmələrdə düzgün gender rollarının formalaşdırılmasında nəzərə alına bilər.

**Ədəbiyyat:**

1. Abbaszadə, N. Gender probleminin psixoloji aspektləri. Mühazirələr kursu / N. Abbaszadə. –Bakı: Qərb Universitetinin nəşriyyatı – Poliqrafiya Mərkəzi, - 2002.
2. Əlizadə, Ə. Uşaqlar və yeniyetmələr: seksual inkişafın psixopedaqogikası / Ə. Əlizadə. -Bakı: - 2009, - 576 s.
3. Əlizadə, Ə. “Ənənəvi təhsildən təfəkkür məktəbinə" mövzusunda respublika elmi-praktik konfransının materialları // - Bakı: - 2017, - 129 s.

4. Əliyev, R. Mentalitet / R. Əliyev. –Bakı: Elm və təhsil, - 2009, - 232 s.
5. Əliyev, R. Tərbiyə psixologiyası / R. Əliyev. – Bakı: Nurlan, - 2006, - 200 s.
6. Əfəndiyeva, Ü. Əsrin gender konsepsiyası: Dərs vəsaiti / Ü. Əfəndiyeva. -Bakı: - 2017, - 288 s.
7. Əzimli, Q. Yaş və pedaqoji psixologiyanın müasir problemləri. Ali məktəblər üçün dərs vəsaiti / Q. Əzimli.– Bakı: Nurlan, - 2008, - 528 s.
8. Qədirov, Ə. Yaş psixologiyası / Qədirov Ə. - Bakı: Maarif, -2008, -386 s.
9. Mirzəzadə, R. Multikulturalizm siyasəti və şərq-qərb müxtəlifliyi: Gender, din və mənəviyyat / R. Mirzəzadə. -Bakı: - Təknur, – 2013, -160 s.
10. Берн, Ш. Гендерная психология. / Ш. Берн. -Санкт-Петербург: - 2001.
11. Maccoby, E. Psychology and gender differences. / E. Maccoby. - Stanford University. – 1995.
12. Bandura, A. Social learning theory. Englewood Cliffs. / A. Bandura. - New Jersey: Prentice Hall, – 1977.
13. Ersoy, E. Cinsiyet Kültürü İçerisinde Kadın ve Erkek Kimliği. / E. Ersoy. -Fırat Üniversitesi, Sosyal Bilimler Dergisi, Cilt:19, Sayı: 2, - 2009, - 209 – 230 s.
14. Güngör, E. Değerler Psikolojisi Üzerinde Araştırmalar, / E. Güngör - İstanbul: Ötüken Yayınları, - 1998.
15. Ritzer, G. Modern Sosyoloji Kuramları, Çeviren: Himmet Hülür / G. Ritzer. -Ankara: Deki Yayınları, - 2012.
16. Şahin, M. Kültür aktarımında toplumsal cinsiyetin rolü. / M. Şahin. - Akademik Hassasiyetler, 6(11) - 2019. 233-249 s.
17. http://aztehsil.com/psixoloq/896-kii-v-qadn-mllimlrinin-psixoloji xsusiyytlri.html

**E-mail:** ulviyyanahmatova@gmail.com
**Rəyçilər:** *psixol.elm.dok., dos.* **E.B. Bəylərov**
*psixol.ü.fəls.dok., dos.* **U.M. Qəzvini**
**Redaksiyaya daxil olub:** 01.05.2023